# BMT Baş Assambleyasının 78-ci sessiyasının prezidenti Dennis FRENSİS:

# "Azərbaycan iqlim maliyyəsi təşəbbüslərini irəli sürmək üçün möhkəm zəmin yaradıb"

"Mən Azərbaycan hökumətini COP29 konfransının yüksək səviyyədə təşkil etdiyinə görə təbrik edirəm. Nəqliyyat xidmətini xüsusilə vurğulamaq istərdim. COP29 məkanı mənə xoş təəssürat bağışladı. Eyni zamanda iqlim maliyyəsi və strateji hədəflərə nail olmaq baxımından COP29 konfransının səmərəli keçməsi istiqamətində Azərbaycan tərəfindən böyük səylər göstərilib".




Bu sözləri AZƏRTAC-a açıqlamasında Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının 78-ci sessiyasının prezidenti Dennis Frensis söyləyib. O, COP29 konfransından gözləntilərin yüksək olduğunu vurğulayıb: "Azərbaycan iqlim maliyyəsi təşəbbüslərini irəli sürmək üçün möhkəm zəmin yaradıb. İkinci xoşagələn məqam isə özəl sektorunun bu prosesdə yaxından iştirakıdır ki, bu da olduqca zəruridir".

Azərbaycan.- 2024.- 20 noyabr (№ 255).- S.7.